## *MAGİSTRATURA TƏHSİLİ*
## *ОБРАЗОВАНИЕ В МАГИСТРАТУРЕ*
## *MASTER'S EDUCATION*

*UOT 37.0*

***Püstəxanım Məmmədkərim qızı Balayeva***
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin*
*Ümumi pedaqogika kafedrasının baş müəllimi*
*ORCİD: 0009-0000-0868-1734*

# MAGİSTRATURA SƏVİYYƏSİNDƏ TƏHSİLİN MƏZMUNUNUN HÜQUQİ-NORMATİV SƏNƏDLƏRDƏ ƏKSİ

***Пюстаханым Маммедкерим гызы Балаева***
*старший преподаватель кафедры Общей педагогики Азербайджанского Государственного Педагогического Университета*

# ОТРАЖЕНИЕ СОДЕРЖАНИЯ ОБРАЗОВАНИЯ МАГИСТРАТУРЫ В НОРМАТИВНО-ПРАВОВЫХ ДОКУМЕНТАХ

***Pustakhanim Mammadkarim Balayeva***
*head teacher of the department of General pedagogy of the Azerbaijan State Pedagogical University*

# REFLECTION OF THE CONTENT OF EDUCATION AT THE MASTER'S LEVEL IN LEGAL-NORMATIVE DOCUMENTS

**Xülasə.** İlkin olaraq elmi məqalədə magistr və magistrant sözlərinin mahiyyətinə aydınlıq gətirilmişdir. Daha sonra magistratura səviyyəsində təhsilin məzmunu ayrı-ayrı hüquqi-normativ sənədlərə istinad olunaraq açıqlanmışdır.
***Açar sözlər:*** *sənəd, magistrant, mənbə, təhsil, hüquq, norma*

**Резюме.** Прежде всего в научной статье выяснена сущность слов «магистр» и «магистрант». Позднее содержание образования на уровне магистратуры было разъяснено со ссылкой на отдельные нормативно-правовые документы.
***Ключевые слова:*** *документ, магистрант, источник, образование, закон, норма.*

**Summary.** First of all, the essence of the words "master" and "master's student" has been clarified in the scientific article. Later, the content of education at the master's level was explained with reference to separate legal-normative documents.
***Key words:*** *document, graduate student, source, education, law, norm*

Latın məşəli olan “Magistr” və yaxud “magistrant” sözü, “müəllim”, “rəhbər”, “mürəbbi” mənalarını ifadə edir. Qədim Romada mühüm səlahiyyətli şəxsə “magistr” dərəcəsi verilirdi. Mənbələrdən birində göstərilir ki, ”Qədim Romada bir sıra vəzifələrin adı; məsələn, magister equitum-diktatorun köməkçisi, magister militum-son imperiya dövründə baş komandan” [4, s.12], Bizansda isə bu ad yüksək məmur rütbəsi tituluna müvafiq idi.

Prof. R.L. Hüseynzadəyə görə ”magistr” anlayışı “ustad” adının sinonimidir. Öz işinin mahir bilicisi, ustası kimi qəbul olunur. Musiqi termini olan “maestro” sözü də “magistr” sözündən götürülüb, musiqi sahəsinin bilicisi kimi anlaşılır [5, s. 3].

Mənbələrdən birində isə göstərilir ki, “Magistr (lat. magister – rəhbər, müəllim) – magistraturanı bitirmiş şəxslərə verilən ali elmi-ixtisas dərəcəsidir” [6,s.4].

Avropada isə orta əsrlərdə katolik ruhani-cəngavər ordeninin başçısına "magistr" deyilmişdir. Sonralar "magistr" elmi dərəcə kimi universitetlərdə "Yeddi müstəqil sənət" müəllliminə, sonrakı illərdə universitetlərin fəlsəfə fakültəsini bitirənlərə "magistr" elmi dərəcəsi verilmişdir. XIX əsrdən başlayaraq Avropa ölkələrinin bir çoxunda bu ad fəlsəfə doktoru dərəcəsi ilə əvəz olunmuşdur.

Normativ sənədlərdə, mövcud təhsil qanunvericiliyi aktlarında, rəsmi sərəncamlarda və eləcə də əsasnamələrdə magistrant anlayışı və magistr hazırlığı ilə bağlı elmi məlumatlara rast gəlirik.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Magistr hazırlığı haqqında" müvafiq qərarına əsasən 1997-1998-ci tədris ilindən respublikamızda ali təhsilin ikinci - magistratura səviyyəsinə keçilib. Bu qərarla əlaqədar olaraq 1997-1999-cu illərdə müvafiq normativ - hüquqi baza yaradılıb, respublikada magistr hazırlığını həyata keçirmək məqsədilə lazımi sənədlər hazırlanıb və təsdiq olunub. Həmin sənədlər Azərbaycan Respublikasında çoxpilləli və çoxsəviyyəli təhsil sistemində magistr hazırlığı (magistratura), magistrantların dissertasiyasının hazırlanması, təqdim olunması və müdafiəsi qaydaları, magistrlik dissertasiyasının müdafiəsi üçün İxtisaslaşdırılmış Elmi Şuralar, magistr hazırlığının məzmununa və səviyyəsinə qoyulan minimum dövlət tələblərinin strukturu, ali təhsilin magistratura səviyyəsində professor-müəllim heyətinin tədris işi üçün vaxt normasının müəyyənləşdirilməsi, elmi-tədqiqat, elmi-metodik və digər işlərin əsas növləri haqqında əsasnamələri əhatə edir.

Bunlardan biri də Təhsil sahəsində mövcud olan qanunumuzdur. Hesab edirəm ki, bu qanun mükəmməl bir hüquqi sənəddir və təhsilimizin konstitusiyasıdır. Qanunun "Əsas anlayışlar" olan bölməsində, Maddə 1-də göstərilir: "magistr-magistraturanı bitirmiş şəxslərə verilən ali elmi-ixtisas dərəcəsidir" [1,s.7]. Burada eyni zamanda magistr hazırlığı ilə bağlı digər məlumata da rast gəlirik. Belə ki, Maddə 22-də magistratura təhsili ali təhsilin səviyyələrindən biri olaraq göstərilir: "Magistratura təhsili ixtisaslaşmalar üzrə hər hansı ixtisas sahəsinin elmi tədqiqat və ya peşəkar məqsədlərdən ötrü dərindən öyrənilməsini nəzərdə tutur. Məzunlara peşəkar fəaliyyətlə, elmi-tədqiqat və elmi-pedaqoji işlərlə məşğul olmaq hüququ verir. Magistratura təhsilinin məzmunu, təşkili və "magistr" dərəcələrinin verilməsi ilə bağlı qaydalar icra hakimiyyəti orqanı tərəfindən müəyyən olunur. Burada müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir. Daha sonra qeyd olunur ki, "Magistratura elmi-pedaqoji kadr potensialı, maddi-texniki bazası və təhsil infrastrukturu kifayət qədər yüksək olan ali təhsil müəssisələrində yaradıla bilər" [1, s. 32]. Bu təhsil səviyyəsini bitirən şəxslər təhsillərini doktoranturada davam etdirə bilərlər.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1995-ci il 30 mart tarixli 72 nömrəli "Ali təhsil müəssisələrinin Əsasnaməsi"ndə göstərilir ki, "«bakalavr» dərəcəsi almış məzunların ən istedadlı və ümidverən hissəsi müsabiqəyə əsaslanaraq magistraturada saxlanılır. Magistratura üçün keçirilən müsabiqələrdə əvvəllər «bakalavr» dərəcəsi almış, birpilləli ali məktəblərin məzunları da qatıla bilərlər. Magistraturada dərin ixtisaslaşdırma aparılır, elmi araşdırma bacarığı, analiz, sintez və ümumiləşdirmə qabiliyyəti və vərdişləri formalaşdırılır, bir neçə xarici dillərin öyrədilməsinə diqqət yetirilir. Magistraturanı bitirənlər müdafiə etdikləri elmi işə görə ixtisaslaşdırılmış Elmi Şuranın qərarı ilə «magistr» ixtisası və elmi dərəcəsi alır və ixtisas üzrə fəaliyyətə başlayırlar. Bu dərəcəyə yiyələnmiş mütəxəssislər ali məktəblərin «bakalavr» səviyyəsində, habelə institutlarda, kolleclərdə, konservatoriyalarda və başqa birpilləli institutlarda, müxtəlif pillədən olan tədris müəssisələrində işləyə bilərlər [3].

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 21 yanvar tarixli 9 saylı qərarı ilə təsdiq olunmuş "Ali təhsil müəssisəsinin Nümunəvi Nizamnaməsində" göstərilir ki, "ali təhsil müəssisələrində mütəxəssislər və elmi-pedaqoji kadr hazırlığının üç səviyyədən: bakalavriat (tibbi təhsili istisna olmaqla), magistratura (tibbi təhsili istisna olmaqla) və doktoranturadan ibarətdir. Magistratura ali təhsilin ikinci səviyyəsi olmaqla, ixtisaslaşmalar üzrə hər hansı ixtisas sahəsinin elmi-tədqiqat və peşəkar məqsədlər üçün dərindən öyrənilməsini nəzərdə tutur" [2].

R. Hüseynzadə təmayüllərinə görə də magistrantların bir-birindən fərqli olduqlarını qeyd

edərək, belə hesab edir ki, hal-hazırda dünya təhsil sistemində aşağıdakı magistrant tipləri müəyyənləşdirilmişdir:

1. Sonradan yeni ixtisas qazanan magistrantlar.
2. Tədris prosesində biliklər qazanan magistrantlar
3. Ümumi peşə hazırlığı keçən magistrantlar
4. Avropa istiqamətli magistrantlar
5. Xarici dillər üzrə magistrantlar
6. Doktoranturaya hazırlıq səviyyəsi keçən magistrantlar.

Magistratura ali təhsilin ikinci səviyyəsi olmaqla, hansı vəzifələri həyata keçirir?

Magistratura təhsili ilə bağlı mənbələrin birində magistraturanın vəzifələri aşağıdakı şəkildə göstərilmişdir:

1. Magistratura ilk növbədə ali təhsildə ikinci səviyyə olaraq ali təhsilin elitar formasından kütləvi və ümumi formaya keçidini təmin edir.
2. Ali təhsilin adekvat, məqsədyönlü, optimal, səmərəli, çevik olmasını təmin edir.
3. "Uzunmüddətli təhsil", "Ömürboyu təhsil", "fasiləsiz təhsil paradiqmasını reallaşdırır".
4. Varislik prinsipini, yeniləşmə, təkmilləşmə funksiyasını, tədrisin elmi xarakterdə qurulmasını, elmi-tədqiqatçılığı, yaradıcılıq və əməkqabilliyinin vahidliyini təmin edir.
5. "Geniş mənada tanınma", "şəffaflıq", "rəqabət aparmaq və rəqabətə dözümlülük" kimi vəzifələri yerinə yetirir.
6. Transparentlik (fr. Transparent, hərfi mənası-şəffaf) funksiyasının, ağılların, imiclərin, imkanların rəqabətə dayanıqlığını təmin edən strategiyaların modernləşdirilməsini təmin edir.
7. Rasional-selektiv (lat. Selectio-seçmə, seliqo-seçirəm) vəzifəsini yerinə yetirir, tələbələrin qəbulunun, seçib-seçilməsi müyəssərliyini təmin edir.
8. Doktorluq dərəcəsinə qədərki səviyyənin təmin olunması vəzifəsini yerinə yetirir və daha yüksək dərəcə olan doktorluq elmi dərəcəsinə çatmaqdan ötrü imkan və eləcə də şərait yaradır.
9. Varislik və inkişafın birliyini, ali təhsilin akademik və bazar iqtisadiyyatı xarakteristikalarının vəhdətini, klassik dəyərlərə uyğunluğu, dinamik dəyişikliklərə açıq olmasını təmin edir.
10. Yüksək intellektə, yüksək mədəniyyət və əxlaqa, elmi-tədqiqatçılıq qabiliyyətinə, dərin bilik və geniş elmi dünyagörüşə malik peşəkar mütəxəssislər yetişdirir [5,s.6].

Ali təhsil müəssisələrində eləcə də magistr hazırlığını təmin edən şərtlər vardır ki, bu şərtlərdən biri də fənləri tədris edən müəllimlərlə bağlıdır. Belə ki, "13 fevral 1997-ci ildə qəbul olunmuş "Azərbaycan Respublikasında çoxpilləli ali təhsil sistemində magistr hazırlığı (magistratura) haqqında əsasnamə"də göstərilir ki: "Magistratura təhsil səviyyəsində kadr hazırlığına iddiaçı olan təhsil müəssisəsində istiqamət üzrə tədris prosesini təmin edən elmi-pedaqoji kadrların ümumi sayının ən azı 50 faizi, ixtisas üzrə isə ən azı 5 nəfəri elmi dərəcəli olmalıdır." Eyni zamanda burada o da göstərilir ki, "ali təhsil müəssisəsində magistr hazırlığının məzmununu təmin edən şərtlər də vardır ki, bu şərtlərə: magistrantların təhsili proqramlarına daxil edilmiş fənlərin işçi proqramlarında nəzərdə tutulan tədris-informasiya vasitələrinin lazımi miqdarda olması və ali təhsil müəssisələrində müasir milli və beynəlxalq informasiya şəbəkələrinin və məlumat bankları ilə əlaqə terminallarının mövcudluğu və bunlar üçün zəruri miqdarda işçi yerlərinin olması təmin edilməlidir" [7].

Bu gün konkret olaraq "Magistrant" dedikdə yüksək intellektual səviyyəyə, hərtərəfli hazırlığa, analitik-tədqiqatçılıq təfəkkürünə malik, elmi yaradıcılıq metodologiyasını mənimsəmiş, ən müasir informasiya-kommunikasiya texnologiyalarına yiyələnmiş, konsultativ, yaradıcı və praktik fəaliyyətli peşəkar mütəxəssis nəzərdə tutulur.

**Problemin aktuallığı** Magistratura səviyyəsində təhsilin məzmunu bir-biri ilə əlaqəli nəzəri hazırlıqdan, elmi-tədqiqat işindən, pedaqoji və peşə hazırlığından ibarətdir. Magistratura səviyyəsi üzrə nəzəri hazırlığa və pedaqoji hazırlığa humanitar, fənlər və fənlər üzrə mühazirə, məşğələ, seminar, məsləhət, müstəqil iş, pedaqoji təcrübə və s. modelinin öyrənilməsi ilə təmin edilir. Bu səviyyədə keyfiyyətin qorunması qarşıda duran əsas məsələlərdən biridir.

**Problemin yeniliyi** Araşdırma nəticəsində magistrant sözünün mahiyyətinə ayrı-ayrı mənbələrə istinad olunaraq aydınlıq gətirilmişdir. Bir çox hüquqi-normativ sənədlərə istinad olunaraq magistratura səviyyəsində təhsilin məzmununun əksi üzə çıxarılaraq öyrənilmişdir.

**Problemin praktik əhəmiyyəti** Belə ki, elmi məqalədə sürülən ideyalardan, müddəalardan, nəti-

cələrdən magistratura səviyyəsində təhsilin təşkili və keyfiyyətin idarə olunmasında, idarə olunma ilə bağlı dərslik və dərs vəsaitlərinin hazırlanmasında, elmi aspektdə keçirilən müxtəlif simpozium və konfranslarda, məruzə və çıxışların tərtibində istifadə imkanlarını zənginləşdirir və genişləndirir.

**Ədəbiyyat:**


1. Azərbaycan Respublikasının Təhsil haqqında qanunu // 19 iyun 2009-cu ildə qəbul edilmişdir.- Bakı: Hüquq ədəbiyyatı, -2010. -80 s.
2. Ali təhsil müəssisələrinin Əsasnaməsinin təsdiq edilməsi haqqında https: // az. wikipedia. org /w/ index.php? title=Ali_ məktəb& oldid =3 87705
3. Ali təhsil müəssisələrinin Əsasnaməsinin təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Nazirlər Kabinetinin qərarı. http://www.e-qanun. Az /framework/14459
4. Balayev, A. Lüğət / A. Balayev. - Bakı: Altun kitab, -2017.-231 s.
5. Hüseynzadə, R. Magistr dissertasiyası: Metodik vəsait / R. Hüseynzadə.- Bakı: Nurlar, -2009. -104 s.
6. Magistrantlar üçün yaddaş kitabçası / -Bakı: Azərbaycan Universiteti. -2019.-15 s.
7. 13 fevral 1997-ci il. Azərbaycan Respublikasında çoxpilləli ali təhsil sistemində magistr hazırlığı (magistratura) haqqında əsasnamə. http: //genderi. org/azerbaycan –respublikasında -coxpilleli-ali-tehsil-sisteminde-mag.html.


**E-mail: balayeva52@mail.ru**

**Rəyçilər:** *ped.ü.fəls.dok.,dos.* **S.Ə. Orucova**
*ped.ü.fəls.dok.,* **K.R. Quliyeva**
**Redaksiyaya daxil olub:** 20.09.2023